Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

EU4Environment
Green Economy in Eastern Partner Countries

# Ekoloji etiketlər nədir ?

*İstehsalçılar üçün Məlumat*

İstehlakçılara məhsul və xidmətləri xüsusi ekoloji və sosial meyarlara görə seçməyə yardımçı olan **Etiketlər.**

Ətraf mühiti qoruyan və eyni zamanda rəqiblərin məhsul və xidmətlərini ayırd edən **Alət və Vasitələr.**

Məhsul və xidmətlərin satışının artmasını təmin edən **Təşviqat vasitələri.**

Könüllü **Bazar əsaslı alətlər.**

## Bilirdinizmi... ?

Son 6 ildə davamlı inkişafa yönəlmiş məhsulların satışı ənənəvi üsullarla satılan məhsullardan 2 dəfədən çox artmışdır.[1] Getdikcə böyüyən müştəri seqmenti, o cümlədən gənc nəsil üçün daha dayanıqlı məhsul və xidmətlərin təklif edilməsi üzrə biznes-iqtisadi əsalandırma mövcuddur.

25 ölkədə keçirilən son sorğuda respondentlərin 64%-i ətraf mühit və təbiətə öz şəxsi təsirlərini azaltmaq istədiyini bildirmiş, 44%-i isə hazırkı təsirlərinə görə özlərini günahkar hiss etdiklərini qeyd etmişdir.[2]

Müştəri seçimləri qlobal səviyyədə dəyişir, təkcə inkişaf etmiş bazarlarda yox – formalaşmaqda, yaxud inkişaf etməkdə olan ölkələrdə respondentlərin 35%-dən çoxu (müqayisə üçün – inkişaf etmiş ölkələrdə 28%) dayanıqlı istehsal edilmiş mallar aldığını bildirib.[3]

Avropa İttifaqının Şərq Tərəfdaşlığı regionunda yalnız Ukrayna müstəqil QHT tərəfindən verilmiş 1-ci növ ekoloji etiketə malikdir - Green Crane.[4] Həmçinin, Moldova da öz milli Ekoloji etiketinin üzərində işləyir.

[1] **Sustainable Market Share Index**. Center for Sustainable Business, 2021.
[2] **GlobeScan**, 2022.
[3] **Euromonitor International**, 2021.
[4] **Green Crane Ecolabel**, n.d.

www.eu4environment.org

© 2022 UNEP. Bütün hüquqlar qorunur. Şərtlərə əsasən Avropa İttifaqı tərəfindən dəstəklənir.

Design: Zoï Environment Network

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

**EU4Environment**
Green Economy in Eastern Partner Countries

# Ekoloji etiketlərin müxtəlif növləri hansılardır?

*İstehsalçılar üçün Məlumat*

Etiketlərə və onların ən qabaqcıl ekoloji təcrübədə tətbiqinə baxış:

| | **EkoEtiket**<br>I Növ | **Sertifikatlaşdırma sxemi, yaxud dayanıqlılıq etiketi**<br>İ-ə bənzər Növ | **Özü bəyanetmə**<br>II Növ | **Ekoloji məhsul barədə bəyanetmə**<br>III Növ |
|---|---|---|---|---|
| ISO istinadı | ISO 14024 | | ISO 14021 | ISO 14025 |
| Üçüncü tərəfin təsdiqlədiyi | ✓ | ✓ | Tələb olunmur, lakin tövsiyə edilir | ✓ |
| İstifadə müddətinə əsaslanan | ✓ | ✓ | Nadir halda | Adətən |
| ətraf mühitə fokuslanan | Tam ekoloji (və sosial) meyar | Ətarf mühitə xüsusi təsir | Ətarf mühitə xüsusi təsir | Ümumi təsir (çox zaman matris kimi göstərilir) |
| Məhsullar arasında müqayisə mümkündür. | Bəzən | Bəzən | --- | Adətən |
| Kommunikasiya metodu | Möhürlü həkketmə, yaxud etiket | Möhürlü həkketmə, yaxud etiket | Bəyanetmə, bəzən möhürlü həkketmə, yaxud qrafik elementlə | Ekoloji məhsul barədə bəyanetmə |
| Kommunikasiya növü | Biznesdən müştəriyə | Biznesdən müştəriyə | Biznesdən müştəriyə | Biznesdən müştəriyə |

## Məhsulun **həyat tsikli**




www.eu4environment.org

© 2022 UNEP. Bütün hüquqlar qorunur. Şərtlərə əsasən Avropa İttifaqı tərəfindən dəstəklənir.

Design: Zoï Environment Network

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

EU4Environment
Green Economy in Eastern Partner Countries

# Ekoloji Etiketlərin faydaları nədir?

*İstehsalçılar üçün Məlumat*



Ekoloji etiketlər şirkətlərə aşağıdakılarda yardımçı olur:



**Səmərəliliyi artırmaqda**

- ekoloji təmiz məhsul və xidmətlərə artan istehlakçı tələbatını ödəmək
- yeni bazarlar (daxili və beynəlxalq) açmaq, yaxud mövcud olanları genişləndirmək
- dayanıqlı dövlət satınalmalarına çıxışı təkmilləşdirmək

İlkin investisiyadan sonra **uzun müddətli dayanıqlı, səmərəli istehsalat təşkil etmək**

- resurslardan istifadənin azaldılması
- ətraf mühitə təsirin daha da azaldılması üçün məhsuldarlığın ölçülməsi



Seçilən və müştərilərin etibarını qazanan dayanıqlı brendlərlə birlikdə **məhsulları təşviq etmək**

Şirkətlərin təbiətin mühafizəsi və dayanıqlı inkişaf sahəsindəki **nüfuzlarını yaxşılaşdırmaq**

Kiçik səylərlə **dayanıqlı məhsullar seçmək üçün istehlakçılara etibarlı meyar təmin etmək**

## Ekoloji etiketlərin ətraf mühitə **təsiri**[1]

Yeni Zelandiyada ECNZ lisenziyalı tualet kağızının satışı il ərzində **21,000** ton $CO_2$ emissiyasının azldılmasına səbəb ola bilər (Təyyarə ilə Parisdən Nyu-Yorka 21 gediş-dönüşə ekvivalentdir).

Çində Çin Ekoloji Etiketinin lisenziyasını almış çoxfunksiyalı printer əsaslı cihazların satışı və istifadəsi vasitəsilə 2018-ci ildə **10 milyard kV/saat** elektrik enerjisinə qənaət edilmişdir.



Hindistanda GreenPro etiketli sement və beton istehsalı ildə təxminən **6,5 milyon** ton istixana effekti yaradan qazının azaldılması deməkdir.

[1] Measuring the Performance of Ecolabels. Global Ecolabelling Network, 2019.

www.eu4environment.org

© 2022 UNEP. Bütün hüquqlar qorunur. Şərtlərə əsasən Avropa İttifaqı tərəfindən dəstəklənir.

Design: Zoï Environment Network

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

EU4Environment
Green Economy in Eastern Partner Countries

# Ekoloji etiketlərdən daha çox istifadə etmək və faydalanmaq

*İstehsalçılar üçün Məlumat*

**Ehtiyatlı olun, ətraf mühit adına fırıldaqçılıq edənlər!**

Avropa İttifaqındakı son bazar icmalı aşkar etmişdir ki, veb saytlarda irəli sürülən, iddia edilən ekoloji mülahizələrin 42%-i şişirdilmişdir. İstehlakçılarda şirkətin ekoloji təcrübələri, yaxud məhsul və ya xidmətin ekoloji səmərələrinə dair yanlış təsəvvür yaratmaq "greenwashing" adlanır. Bu müştərilərin vəd olunan xüsusiyyətləri təmin etməyən məhsullar almasına gətirib çıxarır. Bu isə öz növbəsində çaşqınlıq yaradır və ekoloji etiketlərin və onlardan istifadə edən şirkətlərin nüfuzunu zədələyir.

Greenwashing-dən qaçınmaq və bizneslə müştərilər arasında güvənin formalaşdırılması üçün istehsalçıların öz ekoloji yanaşma təcrübələrindən bəhs edərkən düzgün tarixçə və məlumat təqdim etməsi vacib əhəmiyyətlidir.

## Məhsulun dayanıqlılığı haqqında informasiyanı necə təqdim etməli[1]

Potensial və faktiki sosial və ekoloji təsirləri (resursların hasilatından tullantı kimi atılmasına qədər) müəyyən etmək üçün həyat tsikli yanaşmasını tətbiq etmək vacibdir. Dayanıqlı olmağı iddia etmək beş əsas prinsipə əsaslanmalıdır:

- **ETİBARLILIQ**
- **ŞƏFFAFLIQ**
- **UYĞUNLUQ**
- **ƏLÇATANLIQ**
- **AYDINLIQ**

Bundan başqa, dayanıqlılığın bütün iqtisadi, sosial və ekoloji miqyasını nəzərə alın, sizin məhsul və ya xidmətinizin göstərəcəyi uzunmüddətli müsbət təsiri vurğulayın, mesajınızı başqalarına çatdırmaq üçün innovativ yollar tapın, güvən və nüfuzunuzu artırmaq üçün tərəfdaşlarınızla işləyin və istehlakçılara məhsulları müqayisə etməyə imkan verin.

[1] **Guidelines for Providing Product Sustainability Information.** United Nations Environment Programme, 2017. https://app-onet.tbf.dev/sites/default/files/from-crm/guidelines_executive_summary.pdf

**Video. Guidelines for Providing Product Sustainability Information.** United Nations Environment Programme, 2021. https://www.youtube.com/watch?v=wOOBn_RUKVE.

www.eu4environment.org

© 2022 UNEP. Bütün hüquqlar qorunur. Şərtlərə əsasən Avropa İttifaqı tərəfindən dəstəklənir.

Design: Zoï Environment Network

Action implemented by:
OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

**EU4Environment**
Green Economy in Eastern Partner Countries

# I Növ Ekoloji etiketləri
## necə əldə etməli

*İstehsalçılar üçün Məlumat*

Sizin nəzərdə tutduğunuz bazar üçün mövcud olan I NÖV Ekoloji etiketləri **ARAŞDIRIN.**

**İnvestisiya xətti**

Tələblərə cavab vermək üçün **məhsullarınızı uyğunlaşdırın**

**Müraciətinizi təqdim edin**

**Məhsullarınızı reklam edin** nəticələrdən bəhrələnin



## Avropa İttifaqının (Aİ) Ekoloji etiketlərini **necə əldə etməli** və məhsullarınızı Aİ-na necə **ixrac etməli**

Aİ Ekoloji etiketi Avropa Komissiyasının və Aİ üzv dövlətlərinin idarə etdiyi I Növ mükafat sxemidir. Etiket 11 məhsul qrupu üzrə mövcuddur – təmizlik, geyim və tekstil, üzlüklər, peşəkar yardım olmadan bir işin görülməsi, elektron avadanlıq, mebel və döşək, bağçılıq, tətil məkanları, sürtkü materialları, kağız, şəxsi və heyvanlara gigiyenik qulluq məhsulları – daha çoxu isə inkişaf etməkdədir.

## Aİ Ekoloji etiketi əldə etmək üçün **yeddi addım**

1. Aİ-da və ya Avropa İqtisadi Məkanında məhsulunuzun bazara çıxacağı ölkədə Səlahiyyətli Qurumla – Aİ Ekoloji etiketi üçün müraciət və lisenziyalar üzrə cavabdeh olan müstəqil təşkilatla əlaqə saxlayın. Səlahiyyətli Qurum növbəti addımlara dair göstəriş və təlimat verəcək.
2. Öz mal və ya xidmətlərinizi Aİ-nın onlayn Ekoloji etiket kataloqunda (ECAT), yaxud Aİ-nın Ekoloji etiket turist yerləşdirmə kataloqunda qeydiyyatdan keçirin.
3. Öz ərizə toplunuzu elə tərtib edin ki, Səlahiyyətli Qurum sizin meyarlara uyğun gəldiyinizi qiymətləndirə bilsin.
4. Ərizənizi təqdim edin və ərizə və illik haqlarını ödəyin.
5. Ərizənizin qiymətləndirilməsini gözləyin.
6. Ərizənizin təsdiqini və Aİ Ekoloj etiket lisenziyasını alın.
7. Öz mal və ya xidmətləriniz haqqında məlumatı Aİ Ekoloji etiketi ilə paylaşın və yaxud reklam edin.





## Aİ Ekoloji etiketinin xərcləri[1]

Aİ Ekoloji etiketlərindən istifadənin xərci məkandan və sizin müəssisənizin ölçüsündən asılıdır. Xidmət haqları ərizə haqqına (200 avrodan 2000 avroya qədər), illik haqlara (mikro, kiçik və orta ölçülü müəssisələr və inkişaf etməkdə olan ölkələrdə ) və təftiş (yoxlama) haqlarına bölünür. Ekoloji etiket meyarlarını ödəmək üçün məhsulları buna uyğunlaşdırmağın və lisenziyanı dəyişdirmək və ya müddətini uzatmağın əlavə xərcləri yarana bilər.

Design: Zoï Environment Network

[1] **EU Ecolabel - How to apply.** European Commission, n.d. https://environment.ec.europa.eu/topics/circular-economy/eu-ecolabel-home/how-apply_en

**www.eu4environment.org**

**© 2022 UNEP.** Bütün hüquqlar qorunur. Şərtlərə əsasən Avropa İttifaqı tərəfindən dəstəklənir.

Action implemented by:

OECD | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK